

Milli azadlıqdan şirin nemət yoxdur!

# Türk dünyası daha möhkəm birliyə doğru



Bax səh. 2

YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

23 may 2025-ci il, cümə

№ 088 (6915)

Qiyməti 60 qəpik

# Sabitliyin, rifahın və əməkdaşlığın modeli




Bax səh. 3

# Qayıdış hüququ təmin edilənədək...

## Qərbi Azərbaycan mövzusu beynəlxalq müstəviyə çıxarılacaq

Bax səh. 4

# Vaxt göstərildi...

## Zəngəzur dəhlizi açılır



Bax səh. 5

# QMİ-dən tarixi qərar

Mayın 22-də Bakıda Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurasının geniş tərkibdə iclası keçirilib.

QMİ sədri, Şeyxülislam Allahşükür Paşazadə İrəvanın tarixi və Qərbi Azərbaycanla bağlı fikirlərini bölüşüb.

Qərbi Azərbaycanda qazılığın tarixi ilə bağlı videoçarx nümayiş etdirilib.

Sonra Allahşükür Paşazadə Azərbaycanda Qurban bayramının keçirilməsi ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsinin fətvasını səsləndirib. Diqqətə çatdırılıb ki, bayram bu il iyunun 6-na təsadüf edəcək.

İrəvan qazılığı ilə bağlı ayrıca Əsasnamə təqdim olunaraq səsə qoyulub və qəbul olunub. Sənədi QMİ sədrinin müavini Fuad Nurullayev iclas iştirakçılarına təqdim edib.

Bildirilib ki, İrəvan qazılığı ilkin mərhələdə Qafqaz Müsəlmanları İdarəsinin binasında yerləşəcək. Səsvermə nəticəsində Bəxtiyar Nəcəfov İrəvan qazısı seçilib.

# Diplomatların qətli...

## ABŞ-İsrail münasibətlərinə təsir edəcəkmi?

Bax səh. 7

# Rusiya-Ermənistan münasibətləri "redaktə" olunur



Bax səh. 6

# Qədim İrəvanın "QIZIL ŞƏFƏQ"i

Bax səh. 7

# Türk dünyası daha möhkəm birliyə doğru

Bu günlərdə Macarıstanın paytaxtı Budapeştdə baş tutan Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü böyük və Avrasiyada kommunikasiyalar nöqteyi-nəzərindən çox önəmli bir coğrafiyada yerləşən Türkdilli ölkələrin inteqrasiyası yolunda növbəti uğurlu addım oldu. Zirvə görüşü çərçivəsində liderlər önəmli görüşlər keçirdilər və aktual müzakirələr apardılar. Zirvə görüşündə liderlərin çıxışlarında və imzalanan Bəyannamədə yaranan fürsətlərdən bəhrələnməklə Türkdilli ölkələr arasında əməkdaşlığın genişləndirilməsinin zəruriliyini özündə ehtiva edən bir sıra mühüm mesajlar verilib. Tədbirdə liderlər yekdil fikir və üst-üstə düşən siyasi iradə ortaya qoyublar.






## Rəsmi Bakının təşəbbüsünün önəmi

Hazırda qlobal miqyasda sürətli transformasiyalar baş verir, dünya dəyişir, yeni nizam formalaşır. Belə bir şəraitdə Türk dünyası üçün də mühüm çağırışlar yaranıb. Zirvə görüşündə müzakirələr də əsasən bu kontekstdə aparılıb. Tədbirdə meydana çıxan çağırışlarla bağlı addımların atılması üçün belə Zirvə görüşlərinin keçirilməsinin əhəmiyyəti xüsusi vurğulanıb. Yüksəksəviyyəli təmaslar çox olduqca, münasibətlərin dərinləşməsi üçün də daha geniş imkanlar yaranır. Artıq yalnız rəsmi deyil, eyni zamanda, qeyri-rəsmi Zirvə toplantısının keçirilməsi ölkələrimiz arasında əməkdaşlığın və tərəfdaşlığın daha da dərinləşməsinə xidmət göstərən amil kimi qiymətləndirilməlidir.

Xatırlatmaq yerinə düşər ki, Türk Dövlətləri Təşkilatının dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi TDT-nın tarixində yeni bir başlanğıcdır. Bu ənənə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü əsasında həyata vəsiqə alıb. Belə ki, TDT-nın dövlət başçılarının ilk qeyri-formal Zirvə görüşü ötən il iyulun 6-da bütün Türk dünyasının mədəniyyət paytaxtı sayılan Şuşada baş tutub.

Bu dəfə isə estafet Macarıstana ötürülüb və dost ölkə də tədbirə yüksək səviyyədə hazırlıqlar görüb. Macarıstan TDT-da 2018-ci ildən etibarən müşahidəçi statusuna malikdir. Zirvə görüşü kimi önəmli bir tədbirin təşkilatda müşahidəçi statusu daşıyan ölkədə keçirilməsi TDT tarixində bir ilkdir. Bu, bir tərəfdən qurumun genişlənmə siyasəti ilə bağlıdırsa, digər tərəfdən də dost Macarıstanın Türk dünyasına inteqrasiya səylərinin təsdiqidir. Macarıstanla Türk dünyasını ortaq tarix birləşdirir. Bu ölkə yeni dünya nizamında Türk dünyası ilə daha sıx əlaqələr qurmağa böyük önəm verir və məqsədyönlü fəaliyyətlər ortaya qoymaqla TDT-nın tamhüquqlu üzvü olmağa çalışdığını təsdiqləyir. Burada Macarıstanın da Türk dünyası üçün önəmli bir ölkə olduğunu vurğulamaq yerinə düşər. Bu ölkə Avropa İttifaqının (Aİ) üzvüdür. Rəsmi Budapeşt ölkənin bu statusundan istifadə etməklə Aİ-Türk dünyası əlaqələrinin yeni bir səviyyəyə yüksəlməsinə vəsilə ola bilər. Prezident İlham Əliyev Budapeştin ev sahibliyi etdiyi Zirvə görüşündəki çıxışında Azərbaycanın təşəbbüsünün TDT-ya üzv dövlətlər tərəfindən dəstəklənməsindən məmnunluğunu bildirərək vurğulayıb: "Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının keçən il Azərbaycanın təşəbbüsü ilə Şuşada ilk qeyri-rəsmi Zirvə görüşü keçirilmişdir. Şadam ki, bu təşəbbüsün davamı olaraq ikinci qeyri-rəsmi Zirvə görüşü təşkil edilir".

Ümumiyyətlə, Zirvə görüşündə də bildirildiyi kimi, Azərbaycan TDT-nın güclənməsinə və onun funksionallığının artmasına daim töhfələr verir. Dövlətimizin başçısı Türk dünyasını vahid bir ailə kimi səciyyələndirib və bildirib ki, bizi başqa yerdə gözləmirlər. Qeyd edək ki, Türk birliyinin ideyadan reallığa çevrilməsində Azərbaycan Prezidenti İlham Əliyevin müstəsna xidmətləri olub. Biz qürur duyuruq ki, TDT-nın yaranmasına aparan yol Naxçıvandan başlayıb. 2009-cu ildə Naxçıvanda keçirilmiş Zirvə görüşündə Azərbaycanın dövlət başçısının təşəbbüsü ilə "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"i imzalanıb və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması üzrə razılığa gəlinib. Bu il isə Azərbaycan Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşünə ev sahibliyi edəcək. Prezident İlham Əliyev çıxışında liderləri Azərbaycana dəvət edib.

## Cənubi Qafqazda sülhün təmin olunmasında Azərbaycanın mühüm rolu

Hazırda bütün dünyanın nəzərlərinin Türkdilli ölkələrin yerləşdiyi coğrafiyaya yönəldiyi fikrini qətiyyətlə təsdiqləyə bilərik. Bu, ilk növbədə resurslarla və gərgin geosiyasi reallıqlar fonunda alternativ nəqliyyat bağlantılarına artan tələbatla bağlıdır. Azərbaycan və Mərkəzi Asiyadakı Türkdilli ölkələr özlərinin tətbiq etdikləri sanksiya siyasətinin girovuna çevrilən Avropa ölkələrinin resurslara artan ehtiyaclarını qarşılamaq iqtidarındadırlar. Eyni zamanda, bu coğrafiyadan hər cəhətdən əlverişli və təhlükəsiz olan nəqliyyat bağlantıları keçir. Yüklər Çin sərhədlərindən başlayan Orta Dəhlizlə Mərkəzi Asiyadakı Türk dövlətlərindən keçməklə Xəzər dənizi vasitəsilə Azərbaycana və buradan da Türkiyəyə ötürülməklə Avropaya çatdırıla bilər. Əslində, bu marşrut Azərbaycan Prezidentinin siyasi qətiyyəti əsasında yaradılan müasir infrastruktur sayəsində artıq funksionaldır və daşımalar ilbəil artır. Ölkəmizin təkid etdiyi Zəngəzur dəhlizinin açılması ilə Transxəzər marşrutunun daha bir qolu yaranmış olacaq.

Ancaq əlbəttə ki, Avrasiyada inteqrasiyanın dərinləşməsi üçün ilk növbədə təhlükəsizlik şərtləri təmin olunmalıdır. Bu isə uzunmüddətli, qalıcı sülhdən keçir. Budapeşt Zirvə görüşündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Cənubi Qafqazda sabitliyin təmin olunmasında Azərbaycanın rolunu xüsusi vurğulayıb. O, bu xüsusda fikirlərini ifadə edərək deyib: "Dünyamız üçün strateji əhəmiyyətə malik Qafqaz bölgəsində yaşanan prosesləri diqqətlə izləyirik. Can Azərbaycanın Ermənistan ilə sülh müqaviləsi üzrə razılıq əldə etməsindən məmnunuq. İki ölkə arasında davamlı sülh əldə olunacağı təqdirdə, bu vəziyyət heç şübhəsiz ki, Türk dünyamız üçün bir çox fürsətlər yaradacaq. Bu baxımdan Müzəffər Prezident, əziz Qardaşım İlham Əliyevin bölgəyə sülhü gətirəcək Lider olaraq adını tarixə yazdıracağına əminəm".

Qardaş Türkiyənin dövlət başçısının regionda sabitliyin və sülhün təmin olunmasında Azərbaycanın və Prezident İlham Əliyevin roluna xüsusi diqqət çəkməsi təsadüfi deyil. Azərbaycan Avrasiyada bağlantıların mərkəzi ölkəsi olmaqla yanaşı, həm də davamlı olaraq sülh təşəbbüslərindən çıxış edir. Cənubi Qafqaz regionu Ermənistanın apardığı işğalçılıq siyasətinə görə onilliklər ərzində təhdidlərlə, müharibə riskləri ilə üz-üzə qalıb. Məhz respublikamızın 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazandığı qələbələr sayəsində də regionda yeni reallıqlar yaranıb. Bu reallıqlar da bölgədə müharibə səhifəsini bağlamaq və gələcəyə baxmaq üçün əlverişli zəmin formalaşdırıb. Qalib Azərbaycan bu fürsəti qalıcı sülhə çevirməyə çalışır. Təsadüfi deyildir ki, müharibə başa çatandan az sonra respublikamız ilk olaraq sülh təşəbbüsü ilə çıxış etdi və qarşı tərəfə 5 baza prinsipindən ibarət sülh paketi ünvanladı. Artıq Prezident İlham Əliyev tərəfindən güclü şəkildə təşviq olunan ikitərəfli formatda danışıqlar əsasında sülh yolunda əhəmiyyətli uğur əldə olunub. Belə ki, 17 bənddən ibarət sülh sazişinin layihəsi hər iki tərəfdən razılaşdırılıb. Sazişin imzalanması üçün Ermənistan Azərbaycanın iki haqlı tələbini yerinə yetirməlidir. Bunlardan biri ölkəmizə və Türkiyəyə qarşı ərazi iddialarının yer aldığı Ermənistan konstitusiyasının dəyişdirilməsi ilə bağlıdır. Eyni zamanda, rəsmi İrəvan Azərbaycanın haqlı tələbi əsasında de-fakto fəaliyyətsiz olan Minsk qrupunun de-yure də ləğvi ilə bağlı ATƏT-ə müraciət ünvanlamağa razılıq verməlidir. Bu iki tələb yerinə yetirildikdən sonra sülh sazişinin imzalanması üçün hər hansı bir maneə qalmayacaq.

## Türk kimliyi layihəsi

Türk dünyasının birliyi keçici maraqlara deyil, ortaq tarixə, oxşar milli-mənəvi dəyərlərə əsaslanır. Təsadüfi deyildir ki, son illərdə məhz tarixə və ənənələrə əsaslanmaqla ölkələrimiz arasında humanitar-mədəni əlaqələr əhəmiyyətli dərəcədə genişlənib. Ortaq əlifba, ortaq dil layihələri Türk birliyinin möhkəmlənməsi baxımından böyük aktuallığa malikdir. Budapeşt Zirvə görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ökəsinin ötən il Türk dövlətləri arasında strateji tərəfdaşlıq, əbədi dostluq və qardaşlıqla bağlı razılaşmanın işlənib hazırlanmasını təklif etdiyini xatırladıb. Özbəkistanın dövlət başçısı qeyd olunan sənədin qarşıdan gələn Bakı Sammitində imzalanmasını təklif edib. Şavkat Mirziyoyev həmçinin TÜRKSOY çərçivəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini diqqətə çatdıraraq vurğulayıb: "Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY dövlətlərimiz arasında mədəniyyət sahəsində əməkdaşlığın inkişafında xüsusi yerə malikdir. Hesab edirəm ki, bu sahədəki səylərimizi yeni səviyyəyə qaldırmaq və TÜRKSOY-un nüfuzunu daha da artırmaq üçün onun fəaliyyətini və strukturunu müasir tələblərə uyğun şəkildə təkmilləşdirmək lazımdır. Hesab edirəm ki, bununla əlaqədar xarici işlər və mədəniyyət nazirlərimizə buna dair təklifləri Bakı Sammiti üçün hazırlamaqla bağlı tapşırıq vermək məqsədəuyğun olar".

Zirvə görüşündə Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev isə Türk kimliyi layihəsinə başlanıldığının anonsunu edib. Bu, vətəndaşlara öz milli şəxsiyyət vəsiqələri ilə üzv ölkələrə səfər etməyə imkan verəcək. "Türkiyə və Azərbaycan bu layihəni həyata keçirib. İndi biz bunu Mərkəzi Asiya regionunda tətbiq etməliyik", - deyə Baş katib vurğulayıb.

Budapeştdə imzalanan Bəyannamədə də Türkdilli ölkələr arasında mədəni əlaqələrin genişləndirilməsi ilə bağlı bir sıra müddəalar öz əksini tapıb. Sənəddə üzv dövlətlərin Türk dövlətləri arasında qarşılıqlı anlaşma, həmrəylik və ortaq gələcəyə yardım etmək məqsədi daşıyan mədəni və humanitar əlaqələrin gücləndirilməsinin vacib elementi kimi gənclərlə bağlı məsələlər üzrə əməkdaşlığın daha da genişləndirilməsi və strukturlaşdırılması niyyəti ifadə olunub. Həmçinin bildirilir ki, TDT çərçivəsində gənclər və idman sahəsində mübadilə proqramlarının qabaqcıl nailiyyətləri, Qazaxıstanın Aktau şəhərinin TÜRKSOY-un təşəbbüsü ilə 2025-ci il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi təqdir olunur. Bəyannamədə , eyni zamanda, Özbəkistanın Türk Mədəniyyəti və İrsi Fonduna üzv olmaq üçün müraciəti dəstəklənir.

***Mübariz ABDULLAYEV***

## Prezidenti təbrik edirlər

Dünyaya nümunəvi inkişaf modeli təqdim edən Azərbaycan əlamətdar bayramını - 28 May Müstəqillik Gününü qeyd etməyə hazırlaşır. Bu münasibətlə ayrı-ayrı ölkələrin dövlət və hökumət başçıları, nüfuzlu beynəlxaq təsisatların rəhbərləri, dünyada tanınan ictimai-siyasi xadimlər Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edirlər. Təkcə son günlərdə dövətimizin başçısının ünvanına çoxlu sayda təbrik məktubları gəlib. Ötən sayımızda həmin təbriklərin bir qismini təqdim etdik. Bu sırada Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi Asəf Hacıyevdən, Koreya Xalq Demokratik Respublikasının Dövlət İşlərinin Sədri Kim Çen Indan, Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədovdan, Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovdan və digər yüksəksəviyyəli rəsmilərdən gələn təbriklər də var.

Müstəqillik Günü ilə əlaqədar Azərbaycan Prezidentinin ünvanına təbrik məktubları gəlməkdə davam edir.

# Möminə xatun türbəsi bərpa ediləcək - Prezident Sərəncam imzaladı

### Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Naxçıvan şəhərində yerləşən böyük tarix və mədəniyyət yadigarı Möminə xatun türbəsi Azərbaycan milli memarlığının möhtəşəm abidəsi və Şərq memarlığının incilərindən biridir. XII əsrin görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin dühası ilə yaradılmış bu nadir və monumental sənət nümunəsi öz kompozisiya həllinə, kamilliyinə və zərifliyinə görə bütövlükdə İslam aləminin şah əsərləri sırasında fəxri yer tutur. Misilsiz gözəlliyə malik türbə Azərbaycanda həmin dövrlərdə yüksək inkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin mövcudluğunun əyani təcəssümüdür. Möminə xatun türbəsi xalqımızın milli sərvəti kimi dövlət səviyyəsində mühafizə olunan dünya əhəmiyyətli mədəni irs nümunələri siyahısına salınmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Möminə xatun türbəsinin özünəməxsus tarixi görkəminin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması məqsədilə qərara alıram:

1. Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix memarlıq abidəsində bərpa və konservasiya işlərinin aparılması üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ilkin olaraq 1 (bir) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1 ci hissəsində göstərilən bərpa və konservasiya işlərinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini növbəti illərdə Azərbaycan Respublikasının dövlət büdcəsi layihələrində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.



**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 22 may 2025-ci il**

# Sabitliyin, rifahın və əməkdaşlığın modeli

## Türk dövlətləri çoxşaxəli iqtisadi hədəflər yolunda inamla irəliləyir

Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü növbəti dəfə türk dünyasının siyasi-iqtisadi potensialını və geostrateji mövqeyini nümayiş etdirdi. Tədbirin TDT tarixində ilk dəfə müşahidəçi ölkədə - Macarıstanda keçirilməsi isə təşkilatın Şərqi Avropa regionunda nüfuzunu, qlobal iqtisadi proseslərdə aktiv gücünü təsdiqlədi.

Sammitdə çıxış edən Prezident İlham Əliyev Azərbaycanın TDT ölkələri ilə əlaqələrinin inkişafına verdiyi töhfələrə, regional və qlobal transmilli layihələrdə fəal roluna diqqət çəkərək təşkilatın üzv ölkələrinə 20 milyard dollardan çox sərmayə qoyduğunu xatırladıb. Həmin investisiyalar Türkiyədə enerji və kimya sektoruna, eləcə də digər qardaş ölkələrin sənaye, energetika, nəqliyyat sahələrinə yatırılıb. Bu, Azərbaycanın sərmayədar ölkə kimi TDT-də aktiv investisiya imicini göstərir.

### Azərbaycan türk dünyasında aparıcı investordur

Azərbaycan türk dövlətlərinin ortaq maliyyə strukturu olan Türk İnvestisiya Fondunda (TİF) da fəal rol oynayır. Ötən ildən başlayaraq respublikamız fondun maliyyə portfelinin formalaşmasında aktiv səhmdar kimi çıxış edir. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan tərəfindən təsis edilmiş fond türkdilli ölkələrin iqtisadi-maliyyə-sərmayə baxışlarını və gələcək investisiya planlarını müəyyən etmək və həyata keçirmək üçün vahid donorluq funksiyasını üzərinə götürüb. Fondun məqsədi regiondaxili ticarəti genişləndirmək və iqtisadi fəaliyyətləri dəstəkləmək vasitəsilə TDT dövlətlərinin iqtisadi inkişafına töhfə verməkdir. Ölkələrin üzvlük haqqı, investisiya ayırmaları, əsas kapital və əlavə maliyyə alətlərindən formalaşan fondun nizamnamə kapitalı ilkin mərhələdə 500 milyon dollar müəyyən edilib, kapital fondu hər biri nominal dəyəri 50 min dollara bərabər 10 min paya bölünüb ki, burada hər üzv ölkənin limitə uyğun payı vardır. Bundan başqa, fondun nizamnamə kapitalı ödənilmiş paylara və yenidən çağrıla bilən, yəni cəlb edilən paylara bölünüb ki, ümumi nominal dəyər 350 milyon dollar təşkil edir. Əlavə maliyyələşmədə ölkələr üzrə ümumi nominal dəyər isə 150 milyon dollardır. Gələcəkdə, fondun maliyyə portfelinin daha da artırılaraq 1 milyard dolları ötəcəyi istisna olunmur.

### Orta Dəhlizdə ortaq qərarlar

Azərbaycan türk dövlətləri ilə nəqliyyat sahəsində də əməkdaşlığı gücləndirir, son illər ərzində nəqliyyat infrastrukturunu - avtomobil yolları, dəmir yolu xətləri, dəniz limanı, gəmiqayırma zavodu, hava nəqliyyatı böyükhəcmli sərmayələr hesabına müasirləşdirilir. Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Hazırda Bakı Gəmiqayırma Zavodunda 10 yeni gəmi inşa edilir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti 15 milyon tondan 25 milyon tona çatacaq. Azərbaycanda 8 beynəlxalq hava limanı fəaliyyət göstərir. Sayca 9-cu hava limanı yaxın zamanlarda istifadəyə veriləcək. 9 beynəlxalq hava limanından 3-ü Azərbaycanın erməni işğalından azad edilmiş ərazisindədir. Həmçinin 1,5 milyon ton yük qəbuletmə imkanı olan karqo terminalı inşa edilir.

Nəqliyyat infrastrukturunun modernləşdirilməsi açıq dənizlərə çıxışı olmasa da, Azərbaycanı Asiya və Avropa arasında nəqliyyat-logistika mərkəzlərindən birinə çevirib və imkanlar durmadan daha da artır. Türkiyənin və Mərkəzi Asiya dövlətlərinin Azərbaycan ərazisindən tranzit keçən daşımalarının həcmi 2024-cü ildə 11 milyon ton təşkil edib. Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaradan Azərbaycan müştərək müəssisələr qurmaqla, Orta Dəhlizin coğrafiyasını ən işlək haba çevirməkdədir. Bu dəhlizin ən axıcı qollarından biri olan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun daşıma qabiliyyəti keçən il Azərbaycanın vəsaiti hesabına 5 milyon tona çatdırılıb ki, bu da, BTQ-nin nəqliyyat xəritəsində strateji əhəmiyyətindən xəbər verir.

Orta Dəhlizin rəqəmsallaşdırılmasına böyük önəm verən respublikamız hazırda Xəzər dənizi limanları arasında nəqliyyat əməliyyatlarının və ticarətin sadələşdirilməsini nəzərdə tutan vahid rəqəmsal platformanın yaradılması layihəsi üzərində işləri də davam etdirir.






### “Rəqəmsal İpək Yolu” ticari əlaqələri asanlaşdıracaq

TDT-nin mühüm prioritetlərindən biri də qardaş ölkələr arasında kommunikasiya əlaqələrinin yeni modellərinin və müasir rəqəmsal inkişaf formatlarının yaradılmasıdır. Türk dövlətləri arasında son illərdə qabaqcıl kommunikasiyaların mübadiləsi və artan iqtisadi dinamikadan qaynaqlanan yeni tələbatlar bir çox sahələrdə olduğu kimi, vahid rəqəmsal platformada da koordinasiyanın qurulmasını aktuallaşdırır. Xüsusilə də, üzv ölkələr arasında regional ticarət həcmlərinin davamlı olaraq artması və qarşıdakı illərdə əlavə mal mübadiləsinin genişlənməsini təşviq edən yeni ölkələrarası razılaşmaların imzalanması rəqəmsal ticarətin əlaqələndirilməsini zəruri edir.

TDT ölkələrinin mövcud imkanlarından və infrastrukturundan istifadə etməklə Avropa ilə Asiya arasında yeni telekommunikasiya magistral marşrutu yaratmaq məqsədi daşıyan “Rəqəmsal İpək Yolu” layihəsinin fəal yerinə yetirilməsi qarşıdakı ilin əsas iqtisadi hədəflərindən biri olacaq. Türk dövlətlərinin hər birinin yerləşdiyi əlverişli coğrafiya onların müasir dünyada ən innovativ iqtisadi platformalardan biri olan “Digital Hub” ətrafında sıx birləşməsi üçün əlverişli imkanlar yaradır. Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş IX Zirvə Görüşünün yekununda imzalanmış Səmərqənd Bəyannaməsində “Rəqəmsal İpək Yolu” layihəsi çərçivəsində Trans-Xəzər fiber-optik kabel infrastrukturunun yaradılmasını və özlərinin IT infrastrukturlarının bu dəhlizə inteqrasiyası üçün mövcud sistemlərin təkmilləşdirilməsi barədə razılığa gəlib. Müəyyən edilmiş strategiyaya əsasən, Xəzərin dibi ilə Trans-Xəzər fiber-optik kabel xəttinin çəkilişinin 2026-cı ilə qədər tam başa çatdırılması nəzərdə tutulub.

Qardaş ölkələr öz mövcud rəqəmsal infrastrukturlarını vahid məkanda birləşdirməklə yaxın illərdə “Rəqəmsal İpək Yolu” layihəsi ilə Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin əsas mərkəzinə çevriləcək.

### Vergi güzəştləri, sərmayə təşviqləri

Türk dövlətləri iqtisadi-ticari dövriyyənin yüksəldilməsi məqsədilə asan vergi rejiminin də yaradılması istiqamətində irədəli addımlar atmaqdadır. TDT ölkələrinin demək olar ki, hamısı arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər imzalanıb ki, bu da dövlətlərarası mal və xidmət ticarətini, kapitalın, texnologiyanın və şəxslərin sərbəst hərəkətini, eləcə də özəl sərmayələrin axınını stimullaşdırmaq məqsədi güdür.

Beləliklə, ölkələr arasında ticarətin liberallaşdırılması, sərhəd-keçid sistemlərinin rəqəmsallaşması sayəsində daşınan mallar barədə əvvəlcədən məlumat mübadiləsinin qurulması, gömrük prosedurlarının asanlaşdırılması və preferensial ticarətin təmin olunması nəzərdə tutulur ki, bütün bunlar son nəticədə əsas niyyət olan Azad Ticarət Rejiminin formalaşmasına səbəb olacaq. Bu isə türk dövlətlərinin regional iqtisadi inteqrasiyası istiqamətində bağlantılarını daha da artıracaq.

Ötən il Şuşada keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının ilk qeyri-rəsmi Zirvə görüşünə ev sahibliyi edən Azərbaycan bu il təşkilatın rəsmi Zirvə görüşünə hazırlaşır. Bu, respublikamızın TDT-də təşəbbüskarlıq imkanlarını daha da artırmaq, yeni layihələrin icrasında fəal inteqrasiyanı dərinləşdirmək və ümumilikdə, TDT üzvləri ilə əlaqələrin dinamikasında yeni potensialların səfərbər olunmasında əhəmiyyətli rol oynayacaq.

***ELBRUS CƏFƏRLİ***

# Qayıdış hüququ təmin edilənədək...

## Qərbi Azərbaycan mövzusu beynəlxalq müstəviyə çıxarılacaq

Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışı ilə bağlı beynəlxalq müstəvidə işlər davam etdirilir. Bu prosesdə müxtəlif beynəlxalq platformaların imkanlarından səmərəli istifadə olunur. Mayın 21-də Türkiyənin paytaxtı Ankara şəhərində Qərbi Azərbaycan İcmasının və "Azərbaycan-Türkiyə Evi" İctimai Birliyinin birgə təşkilatçılığı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin tərəfdaşlığı ilə "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda keçirilən beynəlxalq konfrans da bunun göstəricisidir.

### Ankarada vacib beynəlxalq konfrans

Qeyd edək ki, konfransa Azərbaycan və Türkiyədən 250-ə yaxın iştirakçı, o cümlədən Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvləri, dövlət qurumlarının nümayəndələri, universitet rektorları, elm və iş adamları, qeyri-hökumət təşkilatlarının və media nümayəndələri qatılıb. Tədbirin açılışında Azərbaycan Prezidenti Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub. O, Türkiyədə belə bir tədbirin keçirilməsinin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edərək, konfransın işinə uğurlar arzulayıb.

Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini, TBMM-nin üzvü Efkan Ala Qərbi Azərbaycanla bağlı Türkiyədə ilk belə konfransın keçirilməsinin tarixi əhəmiyyətindən danışıb.

Tədbirdə müxtəlif panellər üzrə müzakirələr aparılıb. Birinci panel Qərbi Azərbaycanın tarixindən bəhs edib. İkinci panel isə "Qərbi Azərbaycan: hüquqi və humanitar aspektlər" mövzusuna həsr olunub. Sonda iştirakçılar adından konfransın yekun sənədi qəbul edilib.





### Qayıdış Qərbi azərbaycanlıların fundamental hüququdur

Qərbi azərbaycanlıların doğma yurdlarına qayıtması onların fundamental hüququdur. Bu məsələ dövlətimiz tərəfindən müxtəlif beynəlxalq platformalarda daim gündəmə gətirilir. Eləcə də, Qərbi Azərbaycan İcması mütəmadi olaraq bir sıra beynəlxalq təşkilatlara müraciətlər edir. Bunların sırasında BMT Baş katibinə, Avropa İttifaqı Şurasının Prezidentinə, UNESCO-ya və digər beynəlxalq təşkilatlara da müraciətlər var. Hətta bəzi müraciətlər BMT-nin sənədi kimi də yayılıb. Qərbi Azərbaycana Qayıdış Konsepsiyasında da əksini tapan məqamlardan biri məhz qayıdışla bağlı beynəlxalq hüquqi çərçivə və zəmanətdir. Sənəddə indiki Ermənistan ərazisindən azərbaycanlıların qovulması məsələsini presedentsiz ədalətsizlik kimi beynəlxalq ictimaiyyətin gündəliyinə gətirmək, bu vəziyyətin davam etməsinin beynəlxalq sülh və təhlükəsizliyə təhdid kimi qəbul etdirməyə nail olmaq və davamlı sülh və ədalətin bərqərar olması üçün azərbaycanlıların geriyə qayıtma hüququnu təmin edən qərar və razılaşmaların əldə edilməsi ilk vəzifədir. Bu məqsədlə, İcma Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların öz vətənlərinə qayıtmasına şərait yaratmağın Ermənistanın öhdəliyi kimi təsbit olunmasına çalışır. İnsan Hüquqları Ümumi Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt, BMT-nin Qaçqınların Statusuna dair 1951-ci il Konvensiyası və 1967-ci il Protokolu və digər sənədlərdə həmin hüquq öz əksini tapıb.

### Qayıdış hüququ bəzi beynəlxalq təşkilatların sənədlərində əksini tapır

Qeyd edək ki, müxtəlif beynəlxalq təşkilatlar da mövzunu gündəmə gətirir. Məsələn, Asiya Parlament Assambleyasının bu il 17-21 fevral tarixlərində Bakıda keçirilmiş sessiyasında qəbul edilmiş yekun sənədində Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıtmasına və Qərbi Azərbaycan İcmasının qayıdışla bağlı dialoq çağırışlarına birmənalı dəstək ifadə olunub. Aprel ayında isə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Özbəkistanda keçirilən dördüncü konfrasının yekunu olaraq qəbul edilmiş Daşkənd Bəyannaməsində Qərbi azərbaycanlıların qayıdışı məsələsinə yer verilib.

### İcmanın xaricdə nümayəndəliklərinin açılması nəzərdə tutulur

Cari ilin aprel ayında keçirilmiş Antalya Diplomatiya Forumu çərçivəsində "Qlobal idarəetmədə parlament diplomatiyası" mövzusunda baş tutan dəyirmi masada da Qərbi Azərbaycan həqiqətləri də müzakirə edilib. Əlbəttə, bu yöndə faktların sayını artırmaq da olar. Bu baxımdan, Ankara şəhərində "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda keçirilən beynəlxalq konfrans da böyük əhəmiyyət kəsb edir. Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərlinin dediyi kimi, tədbirin Ankarada baş tutması Qərbi Azərbaycan həqiqətlərinin və soydaşlarımızın qayıdış hüququnun Türkiyə ictimaiyyətinə çatdırılması yolunda çox mühüm rol oynayacaq. O hesab edir ki, qardaş Türkiyə bütün sahələrdə olduğu kimi, Qərbi Azərbaycan məsələsində də ölkəmizin yanında olacaq.



Ə. Ələkbərli xatırladıb ki, Qərbi Azərbaycan İcması yarandığı gündən qarşısındakı ilk vəzifələrdən biri Qərbi Azərbaycan həqiqətlərini, bu bölgədən müxtəlif dövrlərdə qovulmuş insanların qayıdış hüquqlarının beynəlxalq ictimaiyyətə çatdırılmasıdır. O, belə tədbirlərin Türkiyənin başqa şəhərlərində də keçirilməsinin planlaşdırıldığını diqqətə çatdırıb.

Bununla yanaşı, xarici ölkələrdə Qərbi Azərbaycan İcmasının nümayəndəliklərinin açılması məsələsi də gündəmdədir. Artıq Avropanın müəyyən ölkələrində nümayəndəlikləri açılıb və fəaliyyət göstərir. Buna misal kimi Fransa və Niderlandı göstərmək olar.

### Növbəti beynəlxalq konfrans Belçikada keçiriləcək

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri müavini, millət vəkili Ramil Həsən isə mediaya açıqlamasında Qərbi Azərbaycana qayıdış mövzusunda növbəti konfransın oktyabrda Belçikada keçirilməsinin nəzərdə tutulduğunu söyləyib. Ankarada keçirilən konfransın bu silsilədən üçüncü beynəlxalq tədbir olduğunu xatırladan R.Həsən, "daha əvvəl Bakıda Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə iki böyük tədbir təşkil olunub. Növbəti konfransın məhz qardaş Türkiyədə keçirilməsi çox əhəmiyyətli hadisədir. Ankaradakı konfrans çox böyük əks-səda doğurdu", - deyə vurğulayıb. Onun sözlərinə görə, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası ilə yanaşı qardaş ölkənin parlamentariləri və elm dünyasının Qərbi Azərbaycana qayıdış məsələsinə verdiyi dəstək bir daha onu göstərdi ki, Türkiyə bir çox sahədə olduğu kimi Qərbi Azərbaycan məsələsində də ölkəmizin ədalət çağırışlarına açıq dəstək verir.

Türkiyə Böyük Millət Məclisinin deputatı, Ədalət və İnkişaf Partiyasının sədr müavini Zafer Sırakayanın "Qərbi Azərbaycana qayıdış tələbi hüququn və ədalətin təzahürüdür" fikri isə qardaş ölkənin mövqeyi ilə yanaşı, həm də beynəlxalq dəstəyin ifadəsidir. Bütövlükdə, Ankarada keçirilmiş tədbir də göstərir ki, Qərbi azərbaycanlıların qayıdış hüququ təmin edilənə qədər bu istiqamətdə beynəlxalq fəaliyyət sistemli şəkildə davam etdiriləcək.

*Nardar BAYRAMLI*

# YAP nümayəndə heyətinin Şimali Kipr Türk Cümhuriyyətinə səfəri başa çatıb







Mayın 21-də Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Prezidenti Ersin Tatar Yeni Azərbaycan Partiyası (YAP), Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) və ŞKTC-nin Ulusal Birlik Partiyasını (UBP) təmsil edən gənclərdən ibarət "Bir Millət, Üç Dövlət Gənclik Düşərgəsi" layihəsinin iştirakçılarını qəbul edib.





Ersin Tatar xalqlarımız arasında münasibətlərin tarixi ənənələrə, ortaq dəyərlərə, dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını bildirib. O, üç ölkənin gənclər təşkilatları arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq "Bir Millət, Üç Dövlət Gənclik Düşərgəsi" layihəsinin müsbət nəticələr verəcəyinə və bütün tərəflər üçün faydalı olacağına əminliyini ifadə edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov yüksək səviyyədə təşkil olunan səfərin hər üç ölkənin iqtidar partiyalarının gəncləri arasında əlaqələrin inkişafına əlverişli zəmin yaratdığını qeyd edib. O, hakim partiyaların gənclər qollarının birgə fəaliyyətinin müştərək hədəflərin reallaşdırılması baxımından önəmini diqqətə çatdırıb.

AK Partinin Gənclik Qollarının rəhbəri Yusuf İbiş və UBP-nin Gənclik Qollarının təmsilçisi Mahmud Hüdaverdi "Bir Millət, Üç Dövlət Gənclik Düşərgəsi" layihəsi çərçivəsində gənc partiya nümayəndələrinin bir araya gəlməsindən məmnunluqlarını ifadə ediblər.

Həmin gün gənclərin Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin inzibati binası ilə tanışlığı olub.

Hakim partiyaları təmsil edən gənclər ŞKTC-nin Baş naziri, Ulusal Birlik Partiyasının Sədri Ünal Üstelin adından verilən rəsmi ziyafətə də qatılıblar.

# İran-Azərbaycan münasibətləri yeni müstəvidə...

## Dialoqun inkişafı müsbət perspektiv vəd edir

Çoxvektorlu xarici siyasət kursuna malik Azərbaycan dünya ölkələri ilə tərəfdaşlıq münasibətlərinin inkişafına hər zaman diqqət yetirir. Ortaya qoyulan səylər isə mühüm nəticələr verir - yaşadığımız coğrafiya sıx əməkdaşlıqlar, təhlükəsiz ticari münasibətlər, siyasi dialoqun inkişaf etdirilməsi kimi vacib çağırışların ünvanı kimi səciyyələndirilir. Xüsusilə, qonşu ölkələrlə münasibətdə həssas yanaşma sərgilənir. Bu baxımdan, ölkəmiz Ermənistan istisna olmaqla, bütün qonşu dövlətlərlə ən yüksək səviyyədə siyasi-iqtisadi əlaqələrə malikdir.

İran İslam Respublikasının da Azərbaycanla əlaqələrinin inkişafı istiqamətində aparılan siyasət mühüm əhəmiyyət kəsb edir. Cənubi Qafqazın geostrateji əhəmiyyətini göz önünə gətirsək, burada siyasi dialoq mühitinin hər zaman aktuallığını qorumasının əsas şərt olduğunu deyə bilərik - Azərbaycan ilə İran arasında səmimi dialoq mühiti mövcuddur.

### Hökm icra olundu...

Yeri gəlmişkən, bir neçə il öncə Azərbaycanın İrandakı səfirliyinə terror hücumu etmiş İslam Respublikası vətəndaşı Yasin Hüseynzadə haqqında verilmiş hökm icra edilib - o, edam olunub. Məlumata görə, hökm aşağı instansiya məhkəməsinin qərarını Ali Məhkəmə təsdiqləyəndən sonra icra olunub. Xatırladaq ki, 2023-cü il yanvarın 27-də Bakı vaxtı ilə səhər saat 8:30-da Yasin Hüseynzadə "Kalaşnikov" markalı avtomat silahla mühafizə postunu yararaq mühafizə xidmətinin rəisi Orxan Əsgərovu qətlə yetirib. Səfirliyin mühafizə xidmətinin əməkdaşları Vasif Tağıyev və Mahir İmanov hücumun qarşısını alarkən yaralanıblar. Terror hadisəsi baş verəndən dərhal sonra Prezident İlham Əliyev səfirliyin fəaliyyətinin dayandırılması, diplomatların geri çağırılması ilə bağlı tapşırıq vermişdi. Məsələ ilə əlaqədar Azərbaycanın prinsipial mövqeyi açıqlamışdı. Rəsmi Bakı cinayətkarın həbs olunması və cəzalandırılmasını tələb etmişdi. Azərbaycan Xarici İşlər Nazirliyi həmin il yanvarın 30-da səfirliyin əməkdaşlarını Tehrandan təxliyə edərək diplomatik missiyanın fəaliyyətini dayandırıb. Hücum aktı ilə bağlı Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmışdı.

İki dövlət arasında aparılmış danışıqlar nəticəsində 2024-cü il iyulun 15-dən etibarən Azərbaycanın İrandakı səfirliyi yeni ünvanda fəaliyyətini bərpa edib, səfir və səfirliyin heyəti İrana geri dönüb.

### İqtisadi münasibətlər geniş mahiyyət daşıyır...

Cənubi Qafqazın geostrateji durumu burada siyasi dialoq mühitinin hər zaman aktuallığını qorumasının əsas şərt olduğunu ortaya qoyur. İran ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyədə inkişafı isə həm də yeni yaranan iqtisadi-ticari situasiyanı daha da gücləndirən amillər sırasında qeyd olunur - Tehran ilə Bakı arasındakı yaxın qonşuluq münasibətlərinin dərinləşməsi regional inkişaf tempinə müsbət təsirlərini göstərir. Xatırladaq ki, hələ ötən ilin yayında Məsud Pezeşkiani İran prezidenti seçilməsi münasibətilə təbrik edən Prezident İlham Əliyev ona zəng etmişdi. Söhbət zamanı ortaq dini-mədəni köklər, dostluq və qardaşlığa əsaslanan Azərbaycan-İran əlaqələrinin bundan sonra da genişlənəcəyinə və müxtəlif sahələri əhatə edən əməkdaşlığımızın inkişaf edəcəyinə əminlik ifadə olunmuşdu.

Hər iki ölkə müasir dövrdə əlaqələri yeni çağırışlar əsasında formalaşdırır - xüsusilə, iqtisadi platformada iki dövlət arasında əsaslı razılaşmalar mövcuddur, bir sıra yeni layihələr həyata keçirilib və keçirilir. Nəqliyyat sahəsində reallaşdırılan birgə layihələr əməkdaşlığa əsaslı nümunə sayıla bilər - hər iki ölkə Şimal-Cənub Dəhlizi marşrutu üzrə öz səylərini birləşdirməkdə qərarlıdırlar. Yaxın 10 il ərzində Asiya ilə Avropa arasındakı ticarət dövriyyəsinin həcminin bir neçə dəfə artması gözlənilir ki, burada da məhz Şimal-Cənub dəhlizi üzrə daşımalardan əldə olunacaq gəlirlər də diqqəti cəlb edir - iki qitə arasında daşınacaq yüklərin 15 faizi bu dəhliz vasitəsilə həyata keçirilsə, Azərbaycanla İran külli miqdarda gəlir əldə etmək imkanı qazanacaqlar. Hazırda iki dost ölkə Şimal-Cənub Dəhlizinin funksionallığının artırılmasına böyük səy göstərirlər. Azərbaycan öz ərazisi üzrə marşrut istiqamətində böyük infrastruktur layihələri həyata keçirib. Bakı Beynəlxalq Ticarət Limanının yükaşırma qabiliyyətinin artırılması ilə yanaşı, Ələt-Astara avtomobil yolu yenidən qurulub. İran Astarası ilə Azərbaycan Astarası arasında yeni dəmir yolu körpüsü tikilərək istifadəyə verilib, Astaraçay üzərində yeni avtomobil körpüsünün tikintisi artıq başa çatıb. Eyni zamanda, Ağbənd istiqamətində yeni avtomobil körpüsü tikilir. Ağbənd körpüsünün 2026-cı ilin əvvəllərində istifadəyə verilməsi və onun istismarının asanlaşdırılması istiqamətində planlar nəzərdən keçirilir. Bu körpü təkcə Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirən körpü deyil, bu, beynəlxalq nəqliyyat dəhlizinin bir parçasıdır. Körpü Şimal-Cənub Dəhlizi ilə yanaşı, həm də, Şərq-Qərb Nəqliyyat Dəhlizlərinin bir hissəsi olacaq. Bütövlükdə, Ağbənd yolu regionları birləşdirən əsas nəqliyyat-tranzit bağlantılarından birinə çevriləcək.



### Əlaqələrin strateji əsasları...

Paralel olaraq iki ölkə arasında siyasi dialoqun yeni və konstruktiv bir mərhələyə qədəm qoyması regionun sabitliyi və əməkdaşlıq perspektivləri baxımından mühüm əhəmiyyət kəsb edir. Bir zamanlar gərginliklərlə müşayiət olunan münasibətlər artıq qarşılıqlı hörmət, suverenliyə riayət və iqtisadi-siyasi əməkdaşlığa əsaslanan müsbət bir məcraya yönəlib. İran və Azərbaycan arasında dialoqun intensivləşməsi bir neçə strateji əsas üzərində qurulub:

- Yüksək səviyyəli siyasi təmaslar - Son aylarda hər iki ölkənin yüksək vəzifəli rəsmilərinin qarşılıqlı səfərləri və verdikləri bəyanatlar əməkdaşlıq ruhunun möhkəmləndiyini göstərir. Sərhəd təhlükəsizliyi, iqtisadi layihələr və regional əməkdaşlıq məsələləri bu görüşlərin əsas gündəmini təşkil edir.

- Regional layihələrdə koordinasiya - İran və Azərbaycan "Şimal-Cənub" nəqliyyat dəhlizi kimi mühüm layihələrdə tərəfdaşlıq edir. Bu əməkdaşlıq regionun tranzit potensialını artırmaqla yanaşı, iqtisadi inteqrasiyanın da gücləndirir.

- Sərhədyanı əməkdaşlıq və təhlükəsizlik məsələləri - Tərəflər sərhəddə sabitliyi təmin etmək və qeyri-qanuni fəaliyyətlərə qarşı birgə tədbirlər görməkdə maraqlıdır. Bu da siyasi etimadın dərinləşməsinə xidmət edir.

### Dialoqu davamlı saxlamaq, müsbət gündəmi qorumaq...

Eyni zamanda iki ölkə arasında münasibətlərin yeni məcraya yönəlməsi olduqca vacib geosiyasi amillərlə bağlıdır. Xüsusilə, post-müharibə reallıqlarının formatında Azərbaycanın apardığı uğurlu fəaliyyət bütövlükdə regionun siyasi-iqtisadi inkişafı üçün mərhələ formalaşdırıb. Bu kontekstdə rəsmi Tehran Azərbaycanla mehriban qonşuluq siyasətinin həm regionda nüfuzuna, həm də təhlükəsizlik maraqlarına xidmət etdiyini dərk edir. İran ilə Azərbaycan arasında siyasi dialoqun bu yeni mərhələsi isə mühüm müsbət nəticələr vəd edir. Nəzərə alınmalıdır ki, qarşılıqlı anlaşma regionda hərbi və siyasi gərginliklərin qarşısını almağa imkan verir. Ticarət dövriyyəsinin artması, birgə sənaye zonalarının yaradılması və nəqliyyat dəhlizlərinin inkişafı isə iqtisadi rifahı gücləndirəcək. Məsələyə həm də mədəni və humanitar əlaqələrin inkişafı prizmasından yanaşılsa, ortaq dini-mədəni irsə malik olan bu iki xalq arasında yaxınlaşma daha da dərinləşir.

Nəticə etibarı ilə, İranla Azərbaycan arasında siyasi dialoqun yeni mərhələyə qədəm qoyması təkcə ikitərəfli münasibətlər üçün deyil, ümumilikdə Cənubi Qafqaz və Yaxın Şərq bölgəsi üçün də sabitlik və əməkdaşlıq baxımından önəmlidir. Bu münasibətlərin davamlı və qarşılıqlı etimada əsaslanan şəkildə inkişafı, gələcəkdə daha böyük regional təşəbbüslərin reallaşmasına zəmin yarada bilər. Əsas məsələ bu dialoqu davamlı saxlamaq, qarşılıqlı maraqları nəzərə almaq və müsbət gündəmi qorumaqdır.

**P.İSMAYILOV**

# Vaxt göstərildi...

## Zəngəzur dəhlizi açılır

Azərbaycan ilə Ermənistan arasında sülhlə bağlı proses mühüm bir mərhələyə qədəm qoyub. İkitərəfli formatda irəliləyən danışıqlar formatı müəyyən nəticələrə nail olub - xüsusilə, son 3 ayda sülh sənədinin bütün müddəalarının razılaşdırılması prosesin uğurla nəticələnəcəyinə ümid yaradır. Təbii ki, Ermənistan öz öhdəliklərini yerinə yetirəcəyi halda Azərbaycan üçün sülh məsələsi hər zaman aktualdır. Paralel olaraq Zəngəzur dəhlizi ilə bağlı məsələ İrəvan tərəfindən həyata keçirilməlidir. Qeyd edək ki, Prezident İlham Əliyev hər zaman bildirib ki, Ermənistan Azərbaycandan Azərbaycana maneəsiz getmək üçün bizə yol verməlidir.

Vurğulayaq ki, Azərbaycan, Rusiya və Ermənistan arasında 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanatın 9-cu bəndi və 2021-ci il yanvarın 11-də Moskvada imzalanmış 4 bəndlik bəyanat Zəngəzur dəhlizinin reallaşması üçün hüquqi zəmin yaradıb. Müzakirə edilən bu dəhliz müasir "Böyük İpək yolu"dur. Başqa sözlə, "Şərq-Qərb" ticarət yolunun ən mühüm seqmentlərindən biri kimi meydana çıxan Zəngəzur dəhlizi adıçəkilən tranzit xətt üzrə mühüm üstünlüklər formalaşdırır. Bu dəhliz iki kontingent arasında ən əlverişli, qısa və optimal ticarət logistikasıdır. Hazırda bir sıra regionlarda davam edən münaqişələri göz önünə gətirsək, Zəngəzur dəhlizinin aktuallığı daha yaxşı nəzərə çarpar. Bu dəhlizin açılması Şərq-Qərb kommunikasiya sisteminin daha fəal şəkildə inkişafına və inteqrasiyasına təkan verir. Günün reallığı ilə yanaşdıqda, hətta demək mümkündür ki, Zəngəzur dəhlizi Şərq-Qərb dəhlizinin gələcək perspektivini özündə əks etdirir.

### Yaxın perspektivdə...

Yeri gəlmişkən, Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu deyib ki, Zəngəzur dəhlizi layihəsini 3-4 il ərzində həyata keçirməyi planlaşdırırıq. O bildirib ki, Zəngəzur dəhlizi layihəsi Türkiyə ilə Türk dünyasını birləşdirəcək: Həm Azərbaycan, həm də Türkiyə işləri davam etdirir".

Bildirilməlidir ki, Uraloğlu hələ ötən ilin yanvarında Türkiyə KİV-lərinə açıqlamasında bildirmişdi ki, Türkiyə Zəngəzur dəhlizi layihəsinin 2029-cu ilədək həyata keçiriləcəyinə ümid edir: "Zəngəzur dəhlizinin Bakıdan Horadizədək olan hissəsi tamamlanmaq üzrədir. Dəhlizin Türkiyə hissəsinin uzunluğu 224 kilometrdir. Onun hazırlıq prosesi beş il çəkəcək. 2028-ci ildə bütün işlərin başa çatacağını düşünürəm".

Bəli, dəhlizin fəaliyyətə başlaması perspektivində regionun tranzit imkanları daha da genişlənəcək. Son illərdə Azərbaycan Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırıb və hazırda bu geniş coğrafiyanın bütün əsas yolları məhz ölkəmizdə kəsişir. Zəngəzur dəhlizi bu bağlantıda yeni və çox mühüm halqa təşkil edəcək. Dəhliz boyunca yaradılacaq dəmir və avtomobil yolları məhz ölkəmizin ərazisində Şərq-Qərb və Şimal-Cənub marşrutlarına inteqrasiya ediləcək. Azərbaycanın Xəzərdə qurduğu ən böyük limanın, həmçinin işğaldan azad edilmiş ərazilərdə inşa olunan üç beynəlxalq səviyyəli aeroportun yaradacağı imkanları da nəzərə alsaq, belə bir qənaət ifadə edə bilərik: Zəngəzur dəhlizi beynəlxalq səviyyədə daşımalar üçün ən cəlbedici marşrutlardan birinə çevriləcək və respublikamız perspektivdə etibarlı tranzit ölkə kimi bundan böyük həcmlərdə gəlir əldə edəcək.

Eyni zamanda, Zəngəzur dəhlizinin yaradılması digər region dövlətləri, xüsusilə Ermənistan üçün olduqca vacibdir. Dəhliz açılandan sonra Azərbaycan ərazisindən keçməklə Rusiyadan Ermənistana dəmir yolu xəttinin açılma ehtimalı realdır. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı yaranacaq. Bundan başqa, İran ilə Ermənistan, Türkiyə ilə Rusiya arasında da birbaşa dəmir yolu bağlantısı olacaq. Beləliklə, bütün region ölkələri yeni infrastruktur layihəsindən fayda götürəcək.




### Türk coğrafiyasını birləşdirəcək yol...

Uraloğlunun vurğuladığı kimi, Zəngəzur dəhlizinin reallaşması birinci növbədə mühüm geocoğrafi situasiya yaradacaq. Mərkəzi Asiya, Cənubi Qafqaz, Kiçik Asiya kimi mühüm iqtisadi gücü olan bölgələri birləşdirəcək dəhliz digər region ölkələri üçün də mühüm əhəmiyyət kəsb edir. Çünki dəhlizin Şimal-Cənub xətti ilə perpendikulyar şəkildə kəsişməsi ikinci xətt üzərində olan dövlətlərin də maraq dairəsini buraya istiqamətləndirir. Başqa sözlə, Zəngəzur dəhlizi ətraf dövlətlərin də iqtisadi maraqlarına cavab verən amil kimi çıxış edir. Bu səbəbdəndir ki, regional müzakirələrdə mütəmadi olaraq bu mövzuya müraciət edilir, məsələnin reallaşması üçün hər kəs öz fəaliyyətini ortaya qoyur.

Ən mühüm nüans isə, Zəngəzur dəhlizinin Türk dövlətlərini birləşdirən kəmər olmasıdır. Başqa sözlə, Azərbaycanın türk birliyinin möhkəmlənməsinə növbəti böyük töhfəsi Zəngəzur dəhlizi olacaq. 44 günlük müharibədə Azərbaycanın qazandığı parlaq qələbə sayəsində regionda yaranan yeni reallıqlar həmçinin tarixi türk coğrafiyasının bərpası üçün geniş perspektivlər açıb. Çox doğru olaraq Zəngəzur dəhlizi tarixi türk coğrafiyasının bərpası istiqamətində mühüm bir addım kimi dəyərləndirilir. Zəngəzur dəhlizi türkdilli ölkələri iqtisadi və coğrafi baxımdan birləşdirməklə yanaşı, regionun strateji əhəmiyyətini də artıracaq. Şübhə yoxdur ki, dəhliz türkdilli ölkələr arasında ticarət dövriyyəsinin və eləcə də beynəlxalq yük daşımalarının həcminin artırılmasına gətirib çıxaracaq.

### Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır!

Eyni zamanda, Zəngəzur dəhlizinin açılması Azərbaycanla Naxçıvan arasında quru əlaqə formalaşdıracaq. Prezident İlham Əliyev bu ilin əvvəlində televiziyalara müsahibəsində vurğulayıb ki, biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, amma əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar: "Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi manеə kimi fəaliyyət göstərməsinlər. Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır. Biz belə vəziyyətdə qala bilmərik. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik? Bizim birbaşa əlaqəmiz olmalıdır və bu əlaqə Ermənistanın suverenliyini şübhə altına qoymur. Sadəcə olaraq, onlar 10 noyabr Bəyanatının müddəalarını yerinə yetirməlidirlər".

**P.SADAYOĞLU**

# Rusiya-Ermənistan münasibətləri "redaktə" olunur

## Lavrovun İrəvan səfəri...

Yeni dövrdə region dövlətləri arasındakı münasibətlər ümumən qlobal proseslərin əsas lokomotivi kimi çıxış etməkdədir. Başqa sözlə, artıq qlobal əlaqələndirmənin ən əsas ünsürlərindən biri məhz qonşu region ölkələri arasındakı əlaqələrin səviyyəsi sayılır. Azərbaycanın bu mənada həm üzərinə götürdüyü vəzifə, həm də gördüyü işlər genişmiqyaslıdır. Avrasiyanın mərkəzində mühüm təhlükəsizlik arxitekturası formalaşdıran Bakı irəli sürdüyü təşəbbüslər ilə yerləşdiyimiz coğrafiyanın daha çox diqqət mərkəzinə düşməsini təmin edir - Azərbaycan özünün qonşu dövlətlərlə fərdi münasibətləri fonunda həm də çoxtərəfli əlaqələr konsorsiumunu yaratmağa çalışır. Beləliklə, yürütdüyü müstəqil, milli maraqlara əsaslanan siyasət ilə bölgənin yeni inkişaf mərhələsində regional faktorun ön plana çıxmasını təmin edir.

Eyni fikirləri, Ermənistanla bağlı demək mümkün deyil - artıq illərdir ki, fərqli qlobal güclərin aləti qismində çıxış edən İrəvan dağıdıcı mahiyyət nümayiş etdirməkdədir. Sülhdən boyun qaçırmaqla, fərqli maraqlara sığınaraq üçüncü tərəfin mənafeyinə xidmət etməklə regionun inkişaf tempini də tormozlayır. Gah "qərbyönümlü", gah da "şimalyönümlü" siyasətə üstünlük verməklə özünün maraqlar müstəvisini formalaşdıra bilmir. Bu isə bütövlükdə region üçün mənfi tendensiya yaradır.

## Azərbaycanın təşəbbüsü ilə...

Vurğulandığı kimi, Cənubi Qafqazın gələcək inkişafının əsas yol strategiyasının müəllifi olan Azərbaycan özünün mühüm təşəbbüsləri ilə coğrafiyamızın geostrateji əhəmiyyətini artırıb. Bu təşəbbüslər regiondakı indiyə qədər formalaşan əməkdaşlıq platformalarını daha da təkmilləşdirir - bugünədək bölgədə formalaşdırılan Azərbaycan - Gürcüstan - Türkiyə, Rusiya - İran - Azərbaycan və bu kimi üçlü, Azərbaycan - İran - Türkiyə - Rusiya kimi dördlü əməkdaşlıq platformaları həm miqyasına, həm də hədəflərinə görə genişlənir. "3+3" formatı kimi müəyyənləşdirilən və Azərbaycan ilə Türkiyənin təşəbbüsü ilə həyata keçirilən platforma isə əsasən region problemlərinin regiondan kənar ölkələrin iştirakı olmadan və bölgə ölkələrinin iştirakı ilə həll olunmasını, regional əməkdaşlıqların möhkəmləndirilməsini özündə ehtiva edir. Qeyd edək ki, "3+3" formatında ilk iclas Gürcüstanın iştirakı olmadan xarici işlər nazirlərinin müavinləri səviyyəsindən 2021-ci il 10 dekabr tarixində Moskvada keçirilmişdi. İkinci tədbir isə 2023-cü ilin oktyabrında XİN başçılarının iştirakı ilə Tehranda reallaşdı. Bu formatda hələlik son görüş isə ötən il oktyabrın 19-da İstanbulda baş tutub.

## Rusiya 3+3-ü dəstəkləyir...

Yeri gəlmişkən, Azərbaycanın bu uğurlu təşəbbüsü Rusiyanın XİN başçısı Sergey Lavrovun Ermənistan səfəri zamanı da aktuallıq kəsb edib. Belə ki, Lavrov 3+3 regional əməkdaşlıq platformasının nazirlərin növbəti görüşlərinin Azərbaycan və Ermənistan paytaxtlarında keçirilməsi təşəbbüsü ilə çıxış edib. O, erməni həmkarı Mirzoyanla danışıqların yekunu üzrə Ermənistan və Azərbaycanın öz aralarında üçüncü forumun keçirilməsi ilə bağlı razılığa gələ biləcəyini bəyan edib və Rusiya tərəfinin təşkilata kömək göstərməyə hazır olduğunu bildirib. Onun sözlərinə görə, Cənubi Qafqazın üç ölkəsinin və üç qonşu dövlətin - Rusiya, İran və Türkiyənin daxil olduğu "3+3" formatı regionda sülhün, təhlükəsizliyin və iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi üçün mühüm potensiala malikdir. "Biz növbəti iki tədbirin Ermənistan və Azərbaycanın paytaxtlarında keçirilməsinin tərəfdarıyıq", - deyə rusiyalı nazir bildirib.

Beləliklə, Azərbaycanın irəli sürdüyü təşəbbüsün gələcək regional inkişaf üçün düstur olması bir daha təsdiqlənir. Artıq region ölkələri dərk edirlər ki, indiki həssas məqamda bütün problemlərin həllində aparıcı predmet bərabərhüquqlu əməkdaşlığın daha da irəliyə aparılmasıdır. Azərbaycan isə bu irəliləyiş üçün olduqca münbit bir müstəvi yaradıb...



## Kremldən İrəvana xəbərdarlıq...

Qeyd edək ki, səfər zamanı Lavrov həm Ermənistanın prezidenti Vaaqn Xaçaturyan, həm baş nazir Nikol Paşinyan, həm də XİN başçısı Ararat Mirzoyanla görüşüb. Görüşlərdə əsas prioritetlərdən biri də artıq illərdir ki, eniş yaşayan Rusiya - Ermənistan münasibətləri olub. Rusiya-Ermənistan Universitetində tələbələr qarşısında çıxış edən Lavrov etiraf edib ki, iki ölkə arasında münasibətlər gərginləşib, lakin onun erməni həmkarının yanvarda Moskvaya səfərindən sonra münasibətlərin bərpası tendensiyası yaranıb. Danışıqların yekununda Lavrov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan iqtisadiyyat, təhlükəsizlik, mədəniyyət və qarşılıqlı diplomatik mövcudluğun genişləndirilməsi sahəsində yüksək səviyyəli sazişlərin həyata keçirilməsi, xüsusilə Ermənistanın Qafan şəhərində Rusiyanın baş konsulluğunun açılması ilə bağlı məsləhətləşmələr cədvəlini imzalayıblar. Lavrov Rusiya və Ermənistan regionları arasında əlaqələrin gücləndirilməsi istiqamətində görülən işləri də xatırladıb. "Bu, bizim müttəfiqlik münasibətlərimizdə, strateji tərəfdaşlıq münasibətlərimizdə qoymaq istədiyimiz maddi təməli daha da möhkəmləndirəcək", - deyə rusiyalı nazir bildirib.

Görünən budur ki, münasibətlərin yeni mərhələyə daşınması üçün Ermənistan özünün "qərbyönümlü" siyasətindən əl çəkməli, yenidən Rusiya "orbitinə" qayıtmalıdır. Xüsusilə, ötən illər ərzində Fransanın bölgəyə aktiv müdaxiləsini təmin etmək üçün canfəşanlıq göstərən İrəvana yenidən Kreml tərəfindən "xəbərdarlıq" edilir. Sitat: "Rusiya Qafqazda üçüncü ölkələrlə əməkdaşlığın inkişaf etdirilməsinin əleyhinə deyil. Ancaq bu əməkdaşlıq regionda gərginlik yaratmağa yönəlməməlidir. Biz əminik ki, burada yaranan məsələləri, ilk növbədə, regionda yerləşən ölkələr və onların ən yaxın qonşuları həll etməlidir. Bizim qeyri-regional dövlətlərə, hazırkı dünya praktikasında nəzərdə tutulduğu kimi, onların burada yerləşən ölkələrlə əlaqələrini inkişaf etdirməsinə qarşı heç bir fikrimiz yoxdur. Bizim mövqeyimiz heç bir gizli gündəm olmadan bunu vicdanla etməyə hazır olan hər kəslə əməkdaşlığa açıq olmaqdır".

Göründüyü kimi, bu fikirlərin mahiyyəti Paşinyanın Fransa "əlaltılığından" çıxması və yenidən rusiyayönümlü siyasətə geri qaytarılmasıdır. Lavrov özünün fikirləri ilə həm də hazırkı hakimiyyətə gələn il keçiriləcək parlament seçkiləri ilə bağlı Kremlin "mövqeyini" açıqladı - əgər, Paşinyan Qərb - xəttindən əl çəkməsə... Nəticəni söyləməyə ehtiyac yoxdur...

## Sülh üçün ən perspektivli yol...

Nəhayət, səfər zamanı səsləndirilən fikirlərdən maraq kəsb edən nüanslardan biri də Ermənistan - Azərbaycan münasibətləri, sülhlə bağlı mövqe oldu. Belə ki, Lavrov Rusiyanın İrəvan və Bakıya sülh müqaviləsinin bağlanması, iqtisadi və nəqliyyat kommunikasiyalarının geniş şəkildə blokdan çıxarılması, habelə dövlət sərhədinin delimitasiyası və demarkasiyası yolu ilə tam sülh və razılaşmaya nail olmaq istiqamətində irəliləyişdə kömək etməyə hazır olduğunu bildirib. O xatırladıb ki, 2020-2022-ci illərdə ən yüksək səviyyədə əldə olunmuş üçtərəfli razılaşmalar Bakı ilə İrəvan arasında sülh prosesinin irəliləyişinin əsası olaraq qalır.

Qeyd olunmalıdır ki, Ermənistan ilə Azərbaycan arasında başlanan sülh prosesi artıq son mərhələdədir - 17 bənddən ibarət sülh sənədinin bütün müddəaları razılaşdırılıb. Ermənistan öznünün Konstitusiyasında dəyişiklik etməklə (qondarma ərazi iddialarından əl çəkməklə) və ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı müraciəti reallaşdırmaqla sülh üçün zəmin formalaşdıracaq. Xüsusi vurğulanmalıdır ki, bu mühüm irəliləyiş Azərbaycanın iradəsinə əsasən baş tutan ikitərəfli təmaslar nəticəsində ortaya çıxıb. Keçirilən ikitərəfli görüşlər onu göstərir ki, məsələnin qarşılıqlı təmas formatında real həlli mövcuddur.

Təbii ki, bu kimi vacib bir məsələnin regional gündəmdə müzakirə predmeti olması anlaşılandır - Azərbaycanın bölgədə formalaşdırmağa çalışdığı əbədi sülh, sabitlik həm də Rusiya üçün olduqca vacib iqtisadi perspektiv daşıyır. Bölgədə reallaşacaq ticari-iqtisadi əməkdaşlıq platformaları bütün dövlətlər üçün böyük maraq kəsb edir - o cümlədən, Rusiya üçün. Kremlin prosesin uğurlu inkişafını dəstəkləməsi isə alqışalayiqdir.

## Rusiya silahı ilə Azərbaycan torpaqlarını işğalda saxlayan...

Lavrov səfər zamanı jurnalistlərə açıqlamasında bir incə nüansa da toxunub - o bildirib ki, Ermənistanın işğal etdiyi Azərbaycan rayonlarında tikdiyi istehkamların xarakteri bu əraziləri uzun müddət nəzarət altında saxlamaq niyyətindən xəbər verirdi. Lavrov analitiklərin qiymətləndirmələrinə istinad edərək deyib ki, Ermənistanın işğalı altında olan Azərbaycanın yeddi rayonunda mühəndis istehkamları bu əraziləri qaytarmaq niyyətinin olmadığını göstərirdi.

"Rusiya silahlarından Ermənistanın heç vaxt rəsmi olaraq iddia etmədiyi yeddi mübahisəsiz Azərbaycan rayonunu işğal etmək üçün istifadə edilib. Orada istehkamlar və döyüş xətləri yaradılıb, bu da açıq şəkildə göstərirdi ki, həmin mövqeləri çox uzun müddət əldə saxlamaq planı var idi", - deyə rusiyalı nazir vurğulayıb.

Rusiya Xarici İşlər Nazirliyinin rəhbəri Moskva ilə İrəvan arasında hərbi-texniki əməkdaşlıq mövzusuna da toxunub. O bildirib ki, tərəflər bu gün İrəvanda əvvəllər müqavilə bağlanılmış, lakin sonralar uğursuz olan silah tədarükü üzrə ödəniş məsələsini həll ediblər. "Bu ödənişlər başqa məqsədlər üçün hesablanıb və burada heç bir ziddiyyət yoxdur", -deyə o qeyd edib. Buna baxmayaraq, nazir əmin edib ki, Ermənistanın müqavilə bağladığı bəzi sistemlər hələ də tədarük edilir. Lavrov vurğulayıb: "Biz bu təcrübəni davam etdirəcəyik".

Göründüyü kimi, Lavrovun fikirlərində xüsusi nüanslar yer alır - ən maraqlı detal isə, Ermənistanın məhz Rusiya silahları ilə Azərbaycan torpaqlarını işğal altında saxladığını bildirməsidir. Beləliklə, Kremlin nümayəndəsi dolayısı yolla bildirib ki, İrəvan heç də sülh fikrində olmayıb - o işğalçılıq iddiasını davam etdirmək niyyətində olub. Lavrov KTMT-dən məhz "Rusiyadan dəstək alması" səbəbilə üz döndərən İrəvana izah edir ki, 30 il ərzində onun bölgədə işğalçı siyasəti davam etdirməsi "müttəfiqinin kölgəsinə" əsaslanıb. Rusiyanın verdiyi havayı silahlar olmasaydı, Ermənistan bu qədər müddətdə bölgədə destruktivlik nümayiş etdirə bilməzdi...

**P.İSMAYILOV**

# Diplomatların qətli...

## ABŞ-İsrail münasibətlərinə təsir edəcəkmi?

İsrail səfirliyinin iki əməkdaşı Vaşinqtondakı Yəhudi Muzeyi qarşısında öldürülüb. Hadisə mayın 21-də axşam saatlarında baş verib. İsrailin Vaşinqtondakı səfirliyinin sözçüsü Tal Naim Koen bildirib ki, səfirliyin iki əməkdaşı muzeydə yəhudilərin tədbirinə qatılarkən yaxın məsafədən atəşə tutulub.

## Qatil kimdir?

Şəhər polis rəisi Pamela Smit isə deyib ki, həlak olan diplomatlar kişi və qadın olub. Artıq İsrail səfirliyinin əməkdaşlarını güllələməkdə şübhəli bilinən şəxs saxlanılıb. Pamela Smitin sözlərinə görə, şübhəli şəxs Çikaqodan olan 30 yaşlı Elias Rodriqezdir. Atışmadan əvvəl onun muzeyin ətrafında dolaşdığı müşahidə edilib. Hadisə zamanı həmin şəxs dörd nəfərlik qrupa yaxınlaşaraq tapançadan iki nəfərə atəş açıb. Hücum zamanı onun “Fələstinə azadlıq!” şüarları səsləndirdiyi bildirilir. Atışmadan sonra qatil muzeyə daxil olub və mühafizəçi tərəfindən saxlanılıb.

## Tramp hadisəni “antisemitizmə əsaslanan” akt adlandırıb

ABŞ Prezidenti Donald Tramp Vaşinqtonda, Yəhudi Muzeyi qarşısında İsrail səfirliyinin iki əməkdaşının ölümü ilə nəticələnən hadisəni “antisemitizmə əsaslanan” akt adlandırıb. Ağ Ev rəhbəri bununla bağlı “Truth Social” sosial şəbəkəsindəki səhifəsində paylaşım edib. “Kolumbiya Dairəsində açıq-aşkar antisemitizm motivləri ilə törədilən bu dəhşətli qətllər indi dayandırılmalıdır! ABŞ-də nifrət və radikalizmə yer yoxdur”, - deyə Tramp qətlə yetirilən diplomatların ailələrinə başsağlığı verib.



## İsrail səfirliklərdə təhlükəsizlik tədbirlərini gücləndirəcək

İsrail Prezidenti İsaak Herzoq və ABŞ Dövlət katibi Marko Rubio da hadisəni pisləyiblər. İsrailin Baş naziri Binyamin Netanyahu isə bəyan edib ki, İsrail dünya ölkələrində səfirliklərində təhlükəsizlik tədbirlərini gücləndiriləcək: “Mən İsrail missiyalarının, dövlət nümayəndələrinin təhlükəsizliyinin gücləndirilməsi barədə göstəriş verdim”. Netanyahu ABŞ Prezidenti Donald Trampa və Baş prokuror Pem Bondiyə “antisemitizmə qarşı aydın mövqelərinə görə” təşəkkür edib.

## Politoloq: Belə hadisələr iki ölkənin münasibətlərini pozmayacaq

Bəs sözügedən qətl hadisəsi ABŞ-İsrail münasibətlərinə mənfi təsir edə bilərmi? Məsələ ilə bağlı qəzetimizə açıqlama verən politoloq İlyas Hüseynov bildirib ki, ABŞ-la İsrail arasında elə sağlam bağlar formalaşıb ki, iki dövlətin nəinki strateji tərəfdaş və müttəfiq, hətta bundan bir qədər də möhkəm münasibətlərinin olduğunu söyləmək olar. Onun sözlərinə görə, belə hadisələr iki ölkənin münasibətlərini pozmayacaq: “7 oktyabr 2023-cü ildə İsrailə qarşı hücumdan sonra ABŞ-ın siyasi elitasında təmsil olunan şəxslər yəhudi olduqlarını bəyan edir, İsrailə ABŞ siyasi xadimi kimi yox, yəhudi kimi gəldiklərini dönə-dönə vurğulayırdılar. Bu fakt münasibətlərin yüksək səviyyəsini açıq şəkildə göstərir”.

ABŞ-İsrail əlaqələrinə kölgə salmaq istəyən qüvvələrin də olduğunu deyən politoloq qeyd edib ki, İranın nüvə obyektlərinə ABŞ-ın dəstəyi ilə hücum etmək planlarına qarşı çıxan dairələr də mövcuddur. “Amma hesab edirəm ki, hər hansı insident, o cümlədən ABŞ-da İsrail diplomatlarının öldürülməsi iki ölkənin münasibətlərində soyuqluğa səbəb ola bilməz. Çünki münasibətlər çox dərin kök atıb. Bunun da tarixi, ideoloji, həm də biznes-korporativ əsasları var. Transmilli korporasiyalar, onların dünyada hegemon mövqeyi ABŞ-la İsrail arasında yaranan məsələlərin dinc yolla həllinə gətirib çıxarır”,- deyə İ.Hüseynov vurğulayıb.

**N. BAYRAMLI**

# QƏDİM İRƏVANIN “QIZIL ŞƏFƏQ”İ

əvvəli ötən saylarımızda

Uğurlu fəaliyyəti nəticəsində artıq gündəlik nəşr olunan bu mətbuat orqanı nəinki Cənubi Qafqazda, keçmiş SSRİ-də nəşr edilən mətbuat orqanları arasında böyük nüfuz qazana bilmişdi. Qəzetin 1000-ci nömrəsinin çapdan çıxması münasibəti ilə Cənubi Qafqazda və başqa yerlərdə nəşr olunan bir sıra mətbuat orqanları qəzetin redaksiyasına təbrik məktubu göndərmiş və yaradıcı kollektivə uğurlar arzulamışlar. Belə mətbuat orqanlarından Azərbaycanda çıxan “Kommunist” (redaktoru Əli Aslanov), “Yeni yol”, “Bakinski raboçi”, “Gənc işçi” (redaktoru Qəzənfər Məhəmmədov), “Şərq qapısı” (Naxçıvan), “Yeni kənd” (redaktoru Teymur Hüseynov), “Zarə Vostoka” (Tiflis), “Narubeje Vostoka”, “Krestyanskaya qazeta” (Moskva) “Vışka” (Bakı) göstərmək olar. Azərbaycan dilində çıxan yerli mətbuat orqanlarından “Bolşevik surəti”, “Zərbəçi kolxozçu” (Vedibasar, baş redaktoru Rza Vəlibəyov, o, eyni zamanda Dəvəli MTS-in rəisi vəzifəsində çalışırdı), “Qırmızı Basarkeçər”, İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun və Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunun kollektivi, Ağbaba maarif şöbəsinin müdiri Əsgər Cəfərov, Savadsızlığı tövsiyyə cəmiyyəti, Bakıdan şair Hüseyn Fərrux “Qızıl” İrəvanın “Qızıl şəfəq”inə” adlı şeiri ilə “Qızıl şəfəq”in 10 illiyi və 1000-ci nömrəsinin işıq üzü görməsi münasibəti ilə bu mətbuat orqanını təbrik etmişdi. Bu da qəzetin gərgin fəaliyyətinə verilən ictimai dəyər idi. Qəzet özünün 1000-ci nömrəsinin çapdan çıxması münasibəti ilə rəngli formatda xüsusi yubiley nömrəsi buraxmışdır. Həmin dövrdə qəzetin fəaliyyətində qadın müxbirlərinin sayının artması da diqqəti cəlb edir. Bu illərdə Mənzərə Axundova, Siddiqə Abbasova, Rübabə Babayeva, Şaman Süleymanova, Nabat İbrahimova, Xədicə Mirzəyeva, Firəngiz İmaməliyeva, Lala İsmayılova, Rəfiqə Fətullayeva, Ənvər Rizayeva, Tərifə İsmixanova, Kübra İbrahimova, Səkinə Əliyeva, regionlarda yaşayan və müxtəlif sahələrdə çalışan aktiv qadınlar Nabat Gəncəliyeva, Ballı İsgəndərova, Telli Tahirli (Zəngəzur), Surə Ağayeva, Mirvari Əliyeva (İrəvan), Həqiqə Babayeva (Uluxanlı), Xırda xanım Şadlinski (Vedi), Cəvahir Əliyeva (Ağbaba), İrəvan firqə məktəbinin tələbələri Qəmər Rizayeva, Teyfə Mustafayeva, Zəkiyə Bağırova, İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun tələbəsi Səriyyə Kazımova, İrəvan əmələ fakültəsinin türk şöbəsinin tələbəsi Fəridə Əsgərova, Bakıdakı Pedaqoji Texnikumda təhsil alan irəvanlı qadın tələbələrdən Seda Qədimova, Lətifə Bağırova, Nəzirə Axundova və başqaları “Qızıl şəfəq” qəzetinin yayılmasında və abunə kampaniyasında çox aktiv iştirak etmişdilər. Qəzetin səhifələrində Fatma Aslanova, İrbaba Bağırova kimi fəal qadın müəlliflərin müxtəlif məzmunlu yazıları dərc edilmişdir.

Qəzetin fədakar kollektivinin fəaliyyəti sayəsində bu mətbu orqanın nüfuzu onun Azərbaycanda və başqa şəhərlərdə çıxan mətbuat orqanları ilə əlaqələrinin qurulması və möhkəmlənməsinə də çox böyük təsir göstərirdi. Bu mətbuat əlaqələrini “Qızıl şəfəq” qəzetinin “Yeni yol” qəzetinin 10, “Bakinski raboçi” qəzetinin 25, “Gənc işçi” qəzetinin 10, “Şərq qapısı” qəzetinin 10, Bakıda Azərbaycan dilində çıxan “Kommunist” qəzetinin 10 illik yubileyləri münasibəti ilə göndərdiyi təbrik məktubları bir daha təsdiq edir.

Qəzetin uğurlu fəaliyyəti erməni şovinist dairələrində qıcıq yaratdığından qəzetin ünvanını tez-tez dəyişməklə onun artan nüfuzuna və möhkəmlənməsinə hər vasitə ilə maneçilik törətməyə çalışmışlar. Daimi redaksiyası olmayan qəzetin redaksiyası 1929-cu ildə Engels küçəsi 4, kənd təsərrüfatı bankının binasında, Abovyan 35-də, 1933-cü ildə Knunyan ev 23-də, 1934-cü ildə İrəvan firqə komitəsinin ikinci mərtəbəsində, 1936-cı ildə Qnuni küçəsi 32-də, mənzil kooperativ binasında və s. yerləşirdi. Erməni şovinist dairələrinin qəzetin ünvanlarının belə tez-tez dəyişməsi həm də bu mətbu orqanı oxucu kütləsi ilə canlı təmasdan məhrum etmək, müxbirlərdən təcrid etmək məqsədi güdürdü.

Belə ki, 1932-ci ildə Ermənistanda 10 mərkəzi, 13 rayon, 1933-cü ildə 13 mərkəzi, 18 rayon qəzeti, 1934-cü ildə isə 55 qəzet nəşr edildiyi halda, bunlardan yalnız Azərbaycan dilində 1 mərkəzi üç rayon qəzeti nəşr edilirdi. 13 mərkəzi qəzetin isə 7-si gündəlik nəşr edilirdi ki, bunların da hamısı erməni dilində çıxan qəzetlər idi. Erməni dilli mətbuat orqanları hərtərəfli diqqət və qayğı ilə əhatə olunduğu halda, Qərbi Azərbaycanda ana dilində yeganə mərkəzi mətbuat orqanı olan “Qızıl şəfəq” qəzeti isə bu qayğılardan məhrum idi.



**Mustafa Hüseynov, “Qızıl şəfəq” qəzetinin redaktoru**

1932-1933-cü illərdə qəzetlə əməkdaşlıq edən yeni müxbirlər, ziyalı və yaradıcı insanlar Abbas Tahir, Nəsib Əfəndiyev, Xəlil Səfərov, Əli Şahin, Sərdar Cəlal, Əli Əliyev, Abbas Azəri və s. göstərmək olar. Bütün bu imzalar və müxtəlif mövzulu məqalələr qəzetin ətrafına güclü heyət topladığını bir daha təsdiq edir.

Bütün bunlara baxmayaraq, “Qızıl şəfəq” qəzeti öz fəaliyyətini uğurla davam etdirir və mətbuat orqanları arasında öz yerini daha da möhkəmləndirirdi. 1935-ci ildə Azərbaycan yazıçılarından Məmməd Səid Ordubadi, Mikayıl Müşfiq, Sabit Rəhman, Mehdi Hüseyn, Yusif bəy Vəzirovdan ibarət nümayəndə heyəti İrəvanda olarkən “Qızıl şəfəq” qəzetinin redaksiyasında olmuş, qəzetin məsul redaktor əvəzi Ələmdar Haşımovla görüşmüşlər. Həmin görüşdə redaksiyanın əməkdaşları Əbülfət İbrahim, Abbas Azəri və başqaları da iştirak etmişlər. Görkəmli yazıçı və şairlər “Qızıl şəfəq” qəzetinin fəaliyyəti ilə yaxından tanış olub, qəzetin azərbaycanlı əhali arasında böyük iş apardığını və yaradıcı soydaşlarımızın bədii yaradıcılığının inkişafında böyük rol oynadığını xüsusi qeyd etmişlər. Mehdi Hüseyn çıxışında azərbaycanlı şair və yazıçılarının çap olunmaq üçün əsərlərini Azərbaycanda nəşr edilən mətbuat orqanlarına da göndərmələrini bu yöndə onlara köməklik göstərmələrini də bildirmişdir. Qəzet nümayəndə heyətinin İrəvan Pedaqoji Məktəbinin müəllim və tələbə heyyəti ilə keçirdiyi görüşü işıqlandırmış və onların çıxışlarından müəyyən hissələri dərc etmişdir. Həmin görüşlə bağlı qəzetdə dərc olunmuş yazıda M.S.Ordubadi bu təhsil ocağının nümunəvi fəaliyyətini yüksək qiymətləndirərək demişdir: “Türk Pedaqoji Texnikumu bizdə böyük intibalar yaratdı. Türk mədəniyyətinin nə qədər böyük inkişafda olduğunun şahidi olduq”. Qəzet Azərbaycandan İrəvana gəlmiş şair və yazıçılardan ibarət nümayəndə heyətinin səfərini, onların bütün görüşlərini daim öz səhifələrində işıqlandırmış, onların səfər təəssüratları ilə bağlı geniş müsahibəni və hər birinin yaradıcılığından bədii nümunələr dərc etmişdir.

Ümumiyyətlə, İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin formalaşmasında və inkişafında “Qızıl şəfəq” qəzetinin özünəməxsus böyük rolu və əhəmiyyəti olmuşdur. 1927-ci ildə Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin nəzdində yaradılmış Azərbaycanlı yazarlar bölməsi və onun ətrafına toplaşmış Nəriman Fəxri, Telman Nəzərli, Əsgər Əsgərzadə, Abbas Tahir, Yusif Rizayi, Əbülfət Rəhimov, Əşrəf Bayramov, Sona Bağırova, Əli Şahin, Abbas Azəri, Əli Əliyev, Nurəli Qurbanov, Bəhlul Məmmədov, Əbülfət İbrahim, Cəlal Sərdar, İslam Süleyman və başqa bu kimi gənc ədəbi simaların yaradıcılığının inkişaf etdirilməsində, onların ictimaiyyətə təqdim olunmasında “Qızıl şəfəq” qəzetinin rolu danılmazdır. Araşdırmalar göstərir ki, “Qızıl şəfəq” qəzeti redaksiyası İrəvan azərbaycanlı yazarlar bölməsi ilə sıx təmasda işləmiş, gənc yazarların ədəbi meydana çıxarılmasında və onların çap olunmuş və olunacaq bütün şeir, hekayə, oçerk və s. bədii nümunələrin səviyyəsinin yüksək olmasına xüsusi səy göstərirdi.

Deyilənlərdən belə bir nəticə hasil olur ki, qəzet “Ermənistan”da yaşayan azərbaycanlıların ictimai-siyasi və ədəbi mədəni həyatının güzgüsü idi. Bütün bunlara baxmayaraq onu da xüsusi qeyd etmək yerinə düşər ki, müxtəlif vaxtlarda qəzetin məsul redaktorları Əkbər Rizayev, Mustafa Hüseynov, Əli Tağızadə, Rza Vəlibəyov, Səfər Alməmmədov, redaktor əvəzi olmuş - Hüseyn Nəcəfov, Əli Heydarov, Mirzə Mirzəyev, Ələmdar Haşımov, Həbib Məhəmmədzadə, Nəcəf Mamedov, Əziz Nağıyev və başqaları əsl ziyalılıq cəsarəti göstərirdilər. Onlar erməni şovinizmi əhatəsində soydaşlarımızın və ana dilimizin hüquqlarını qoruyurdular. Məsələn, Ələsgər Vəliyev azərbaycanlılar yaşayan kəndlərdə kolxozçuların erməni dilini bilmədiyi halda, kargüzarlıq işlərinin ermənicə aparılmasına etiraz edərək yazırdı: “Türk kəndlərində işlər türkcə olmalıdır”.

1937-ci illər Qərbi Azərbaycanda Azərbaycan ədəbi-mədəni, ictimai mühiti üçün olduqca mürəkkəb, keşməkeşli və ziddiyyətli bir dövr olmuşdur. Bütün bunlara baxmayaraq, “Qızıl şəfəq” qəzeti aparıcı mövqeyini əldən verməmiş, öz şərəfli missiyasını yerinə yetirməyə çalışmışdır.

“Qızıl şəfəq” qəzeti ilə bağlı apardığımız bu araşdırma həm də milli mətbuat tariximizin əhatəli şəkildə öyrənilməsinə böyük töhfə olacaqdır.



*Cəlal Allahverdiyev*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Humanizm və mərhəmət aktı...

## 28 mayda əfv olacaq?

İnsan hüquq və azadlıqlarının müdafiəsi dövlət siyasətimizin prioritet istiqamətlərindən biridir. Müstəqilliyimizin bərpasından sonra Azərbaycanda hüquqi dövlət quruculuğu sahəsində ardıcıl və kompleks islahatlar həyata keçirilib, bu istiqamətdə fundamental hüquqi baza formalaşdırılıb. Belə ki, insan hüquq və azadlıqları son dərəcə ciddi şəkildə qorunmaqdadır. Dövlət üçün prioritet olan bu məsələ hər zaman ali səviyyədə diqqətdə saxlanılıb. Azərbaycanda irqindən, dinindən, milliyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqları təmin edilməkdədir. Bu proses ölkə Prezidentinin də qarşısına qoyduğu əsas prioritet məsələlərdən birinə çevrilib.

Əfv sərəncamı humanizmin, insanpərvərliyin, mərhəmətin təntənəsidir. Həm əfv sərəncamları, həm də aministiya aktlarının təsdiqi insanların dövlətə inam və etimadının artırılmasında mühüm əhəmiyyət kəsb edir. Çünki əfv fərmanı ilə azadlığa qovuşan insanlar arasında cinayət törədənlər də var. Onların cəmiyyətə inteqrasiyası, vurduğu zərərin ödənilməsi və tərəflərlə barışığı nəzərə alınır. Bu baxımdan əfv sərəncamı insan hüquq və azadlıqlarına verilən dəyərin göstəricisidir. Məhz bunun bariz nümunəsi kimi Azərbaycanın dövlətçiliyi tarixində ənənəvi olaraq bayramlar ərəfəsində Prezident İlham Əliyev tərəfindən əfv sərəncamları imzalanır. 28 May Müstəqillik Günü ərəfəsində də növbəti humanist addımın atılacağına dair gözləntilər var.

### 800-dək müraciətə baxılıb

Bu günlərdə Prezident yanında Əfv Məsələləri Komissiyasının 2025-ci il üçün sayca 7-ci - sonuncu iclası keçirilib. İclasda 100-dən artıq müraciətə baxılıb. Bununla da komissiyaya daxil olan müraciətlərə baxılaraq bu il üçün iclaslara yekun vurulub. Müsbət rəy verilən müraciətlər siyahısı ölkə Prezidentinə təqdim ediləcək.

Qeyd edək ki, Əfv Məsələləri Komissiyasının 2025-ci il üzrə keçirilən iclaslarda ümumilikdə 800-dən çox müraciətə baxıb.

### Siyahı Prezidentə təqdim olunacaq

Əfv Məsələləri Komissiyasının üzvü Əliməmməd Nuriyev "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, əfv institutu dövlət siyasətimizin humanist mahiyyətini əks etdirən mühüm hüquqi və siyasi alətlərdən biridir. Onun sözlərinə görə, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi fonunda cəmiyyətdə əfv gözləntiləri artsa da, bu, yalnız Azərbaycan Prezidentinin qərarından asılıdır: "Əfv sərəncamına əsasən, müvafiq şəxslərə münasibətdə cəzanın azaldılması, yaxud cəzasının çox hissəsini çəkmiş şəxslərin azad olunması istiqamətində tədbirlər həyata keçirilir. Əfv sərəncamı cəza siyasətinin humanistləşdirilməsi istiqamətində atılan addımlardan biri kimi dəyərləndirilir. Cəmiyyət hər zaman əfv sərəncamının imzalanmasını gözləyir. Aydın məsələdir ki, xüsusilə məhkumların ailələri bu xəbəri səbirsizliklə gözləyirlər. Hesab edirəm ki, ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin əfv sərəncamına düşməsi sevindirici hal kimi qarşılana bilər. Proses artıq yekunlaşıb, rəy verilən müraciətlərin siyahısı Prezident İlham Əliyevə təqdim olunacaq. Yaxın günlərdə sərəncam verilərsə, siyahı açıqlanacaq".

### "28 May ərəfəsində əfv ola bilər..."

Komissiyanın üzvü Rəşad Məcidin sözlərinə görə, yanvardan bəri 7 iclas keçirib və proses yekunlaşıb: "Yəqin ki, 28 May ərəfəsində yeni əfv sərəncamı imzalanacaq. Hər il mart və ya may ayında əfv sərəncamları imzalanır. Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyası adətən yanvar ayından işləməyə başlayır, müraciətləri təhlil edir və sənədlər hazır olandan sonra cənab Prezidentə təqdim olunur. Əfv məsələləri Prezidentin müstəsna səlahiyyətidir, humanizm və mərhəmət aktıdır. Yəqin ki, biz Prezident tərəfindən növbəti əfv sərəncamının imzalanmasının şahidi olacağıq".

Respublikamızda humanizm prinsiplərinə xidmət edən xeyirxah tədbirlərin həyata keçirilməsi, cəzasının müəyyən bir hissəsini çəkən və törətdiyi əməldən peşmançılıq keçirən məhkum olunmuş şəxslərin əfv edilməsi, onlara yeni şans verilməsi ənənəyə çevrilib. Xatırladaq ki, sonuncu əfv sərəncamı 2024-cü ilin may ayında imzalanıb. Belə ki, mayın 25-də Prezident İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən 154 nəfər əfv edilib.

*Yeganə*


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti üzrə hazırlanmışdır**


# Sağlam ətraf mühit naminə...

*Yeganə BAYRAMOVA*

## Ekoloqların peşə bayramıdır

Bəzi problemlər var ki, onlar tək bir ölkəni, xalqı narahat etmir, bütün dünyanı və bəşəriyyəti düşündürür. İndiki və gələcək nəsillərin sağlamlığının ən başlıca şərtlərindən biri təmiz ətraf mühitdən asılıdır. Ona görə də, ekoloji problemlərin həlli bütün ölkə və xalqları bu ideya ətrafında daha da sıx birləşməyə vadar edir.

Bu gün Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin günüdür. Prezident İlham Əliyevin 16 may 2007-ci il tarixində imzaladığı sərəncama əsasən, ölkəmizdə hər il 23 may Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı kimi qeyd olunur. Təbiətə sevgi və qayğı göstərən, onun həyatımızdakı rolunu dərk edən hər kəs başa düşür ki, bu gün sadəcə ekoloqların deyil, təbiətin keşiyində duran hər kəsin bayramıdır.

Ölkə başçısının imzaladığı fərmanlarda, təsdiq etdiyi proqramlarda ekoloji mühitin yaxşılaşdırılması məqsədilə nəzərdə tutulan hədəflərin reallaşması üçün zəruri vəzifələr müəyyənləşdirilib. Eyni zamanda, biomüxtəlifliyin mühafizəsi, meşəçiliyin inkişafı, yaşıllıqların artırılması və su ehtiyatlarının davamlı idarə edilməsi sahəsində müsbət nəticələr əldə olunub.

Xatırladaq ki, 2023-cü il dekabrın 25-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan



edilməsi haqqında sərəncam imzalamışdı. Bu sərəncam ətraf mühitə qayğının dövlət üçün hansı dərəcədə prioritet məsələ olduğunu təsdiq edirdi.

Azərbaycan hökuməti iqlim dəyişmələrinə bütün dünyanı narahat edən ən qlobal problemlərdən biri kimi həssas yanaşaraq "yaşıl mühit" quruculuğunda dayanmadan səylərini artırır. Atmosferdə oksigenin miqdarını artırmağın ən optimal üsulu "yaşıl iqtisadiyyat"ın inkişafına nail olmaqdır ki, hazırda bu istiqamətdə davamlı layihələr icra olunur. Xüsusilə də Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında mövcud potensialdan istifadə olunması "yaşıl iqtisadiyyat"a əvəzsiz töhfələr verməkdədir.

Ölkəmiz ötən ilin noyabr ayında postsovet məkanında ilk dəfə olaraq COP29 kimi mühüm beynəlxalq tədbirə ev sahibliyi etdi. Bu tədbir də ölkəmizdə "yaşıl ətraf mühit" quruculuğunda töhfəverici rol oynadı.

Sözsüz ki, ətraf mühitlə bağlı çoxsaylı tədbirlərin icrasında yenə də əsas məsuliyyət və yük ekoloqların üzərinə düşür. Sənaye inkişaf etdikcə, elmi tərəqqi artdıqca, yeni-yeni infrastruktur layihələri reallaşdıqca, ekoloqlarımızın qarşısında bunların təbiətə vurduğu zərəri heçə endirmək kimi məsul və mürəkkəb bir vəzifə dayanır.

Azərbaycan ekoloqları bütün imkanlarını vətəndaşların sağlam ətraf mühitdə yaşamasının təmin olunmasına yönəldirlər. Bu peşə sahiblərinin gördüyü işlər çətin, vacib və çoxşaxəlidir. Onların yerinə yetirilməsində hər birimiz bu gün peşə bayramını təbrik etdiyimiz ekoloqların yaxın dostu və köməkçisi olmalıyıq...

# "Nar"ın dəstəyi ilə Azərbaycanda biznesə dair ilk "B4B" kitabı təqdim olundu



"Nar"ın dəstəyi ilə Azərbaycanda ilk dəfə olaraq "B4B: Business for Business" adlı kitab nəşr olunub və bir sıra ali təhsil müəssisələrində tələbələrə təqdim edilib. Kitab müasir biznesin idarə olunmasına dair praktik yanaşmalar, strateji planlaşdırma və innovativ inkişaf yollarını əhatə edir. Müəlliflər Abbas Abbasov və Vladimir Klimov nüfuzlu Stokholm İqtisadiyyat Məktəbinin məzunlarıdır. Kitabda təqdim edilən ideyalar da məhz bu ali məktəbdə aparılmış tədqiqat və təcrübələrə əsaslanır.

Kitabın təqdimatları Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Bakı Mühəndislik Universitetində keçirilib. Görüşlərdə iqtisadiyyat və biznesin idarə edilməsi fakültələrinin 200-ə yaxın tələbə və müəllimi iştirak edib. Müəlliflər oxucularla birbaşa ünsiyyət quraraq nəşrin əsas ideyalarını və onların praktik tətbiq imkanlarını müzakirə ediblər.

"B4B" və ya "Business for Business" müasir idarəetmə konsepsiyası kimi şirkətin işgüzar tərəfdaşları ilə sıx əməkdaşlığa, innovasiyalar üzərində birgə fəaliyyətə və nəticədə daha davamlı və sürətli inkişafa əsaslanır. Bu yanaşma kitabda "Toyota", "Procter & Gamble", "Coca-Cola", "IKEA" və digər dünyaca məşhur şirkətlərin nümunələri əsasında aydın və praktik şəkildə izah olunur. Nəşr sahibkarlar, menecerlər və biznesə yeni başlayanlar üçün dəyərli bir bələdçi rolunu oynayır.

"Nar"ın bu təşəbbüsə dəstəyi şirkətin maarifləndirmə və gənclərin inkişafına yönəlmiş sosial məsuliyyət strategiyasının davamıdır. Mobil operator gənclərin bilik və bacarıqlarının artırılmasına xidmət edən layihələrə daim önəm verir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# 2030-cu ildə Çində "uçan marşrut taksilər" istifadəyə veriləcək

Çinin "EHang" startapı əmindir ki, beş ildən sonra Çin üzərində səmada "marşrut taksilər" uçacaq və bəzi şəhərlərdə infrastruktur yaradılacağı təqdirdə əhali onlardan istifadə edə biləcək.

AZƏRTAC "South China Morning Post"a istinadla xəbər verir ki, bu barədə "EHang"ın maliyyə direktoru Konor Yan Çin nəşrinə müsahibəsində bildirib.



O deyib: "İnanıram ki, 2030-cu ilə qədər Çində uçan taksilər olacaq. Ola bilsin ki, bəzi böyük şəhərlərdə uçuş zolaqları kimi infrastruktur varsa, hava taksi xidmətləri də fəaliyyət göstərə bilər". Xatırladaq ki, "EHang" bu ilin sonuna qədər Quançjou və Hefeydə turistlərin görməli yerlərə getməsi üçün EH216-S elektrik təyyarəsindən istifadə etməyi planlaşdırır, lakin bu səfərlər ciddi şəkildə müəyyən edilmiş marşrutlar üzrə həyata keçirilir. Uçuş məsafəsi 30 kilometrə çata bilər, maksimal sürət isə saatda 130 kilometrdir. EH216-S təyyarəsi Çində 331 min dollara başa gəlir və iki sərnişin daşıya bilir.

"EHang" özünə yeni tərəfdaşlar tapmaqla potensialını inkişaf etdirməyi hədəfləyir. Şirkət artıq dartma batareyası istehsalçısı "Gotion" ilə tərəfdaşlığa malikdir və keçən il avtomobil istehsalçısı "Changan Automobile" ilə təyyarənin istehsalı və ona xidmət göstərilməsinə kömək etmək üçün müqavilə bağlayıb. Bu ilin sonuna qədər "EHang" istehsal gücünü ildə 300 təyyarədən 1000 ədədə çatdırmaq niyyətindədir. Şirkət ABŞ fond bazarına çıxmağı bacarıb, lakin səhmlərin hər hansı başqa platformada təkrar yerləşdirilməsini də nəzərdən keçirir. Bu ilin sonuna qədər "EHang" bir tərəfdaşla əməkdaşlıq şəraitində hazırlanmış ən azı iki batareya modelini təqdim edəcək.

Şirkətin məhsul çeşidi də genişlənəcək. "VT-30" modelindən sonra növbəti təkamül mərhələsi olacaq və orta mənzilli (300 kilometrə qədər) uçuşlar üçün nəzərdə tutulan "VT-35" bu rübdə təqdim olunacaq. Təyyarənin dizaynı uzun məsafələrdə səmərəli enerji istehlakı və artan kruiz sürəti üçün optimallaşdırılıb.

Mütəxəssislər hesab edirlər ki, "kiçik elektrik aviasiya" bazarı əvvəlcə logistika xidmətlərinə diqqət yetirəcək, çünki sərnişindaşımaları təhlükəsizlik və infrastrukturun inkişafına daha çox diqqət yetirməyi tələb edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4955**
**Sifariş: 1055**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova